Xəzərdən Adriatik sahillərinə qədər Mixaylo əfsanəsi

Mehdi Hənifə oğlu Hüseynzadə 22 dekabr 1918-ci ildə Bakının Novxanı kəndində anadan olub. Vaxtilə yaşadığı ev "Nizami" metrostansiyasının yaxınlığında yerləşir və önünə qəhrəmanın xatirə lövhəsi vurulub. Atası Hənifə Hüseynov "Hümmət" təşkilatının üzvü olub, Azərbaycanda Sovet rejiminin qurulması üçün çalışıb. Daha sonra milis rəisi kimi ölkə ərazisində banditizmə qarşı mübarizə aparıb, həyatının sonlarına yaxın Bakı Sovetinin inzibati şöbəsində müdir işləyib.

Erkən yaşda atasını itirən Mehdi əvvəl anasının, sonra isə bibisinin himayəsində böyüyüb. 1925-ci ildə 77 saylı yeddiillik məktəbə (hazırda 19 saylı məktəb) daxil olub. İlk müəllimləri görkəmli yazıçı Süleyman Sani Axundov və respublikanın Xalq artisti, tanınmış bəstəkar Səid Rüstəmov olub. Gənc yaşlarından rəsmə, musiqiyə böyük həvəs göstərən Mehdi orta məktəbi bitirdikdən sonra təhsilini Bakı Rəssamlıq Texnikumunda davam etdirib. Zəhmətkeşliyi, elmə, təhsilə bağlılığı ilə dərin hörmət qazanıb. O, axşamlar evdə idarə, kitabxana və nəşriyyatlardan aldığı sifarişləri yerinə yetirər, plakatlar çəkər, şüarlar yazardı.

Bakı Rəssamlıq Texnikumunda Kazım Kazımzadə, Əsgər Abbasov, Əli Zeynalov, Mürsəl Nəcəfov ilə birlikdə oxuyub. Sonra Leninqradda (indiki Sankt-Peterburq) Xarici Dillər İnstitutunda ali təhsil alıb. 1940-cı ildə yenidən Bakıya qayıdaraq Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsilini davam etdirib.

Mehdi Hüseynzadənin iki bacısı olub. Bikə Əlizadə və Hürriyət Əzizbəyova. O, həm şəkil çəkir, tar çalır, şeir yazırdı.

Mehdi Hüseynzadə 1944-cü ildə İtaliyada yazdığı şeirdə deyirdi:

"İtaliyada başladım"

İtaliyada başladım
Nə olur, bir sarı yarpaq olsaydım,
Sabahın yelləri alaydı məni.
Aşıb bəyaz qarlı, hündür dağları,
Vətən torpağına salaydı məni,
Sabahın yelləri alaydı məni...
("Pola", "İtaliya" 1944).

Hüseyn Cavid, Mikayıl Müşfiq, Səməd Vurğun və Süleyman Rüstəm M.Hüseynzadənin sevdiyi şairlər idi.



1941-ci ilin iyun ayında Mehdi Hüseynzadə Şüvəlandakı bağlarında olarkən müharibənin başlanmasını öyrənir və dərhal orduya yazılmaq istədiyini bildirir. Kiçik bacısı Hürriyət Əzizbəyova xatirələrində qeyd edir ki, bibisi Mehdini bu fikirdən yayındırmağa çalışsa da, o deyir: "Mən bağda qala bilmərəm. Birdən mənə hərbi komissarlıqdan çağırış gələr və mən isə evdə olmaram. Mənim vəzifəm Vətəni müdafiə etməkdir". Bundan sonra o, hərbi çağırışı gözləmək üçün şəhərə gedir, avqustun 9-da isə qırmızı ordu sıralarına qoşulur. Gənc əsgər əvvəlcə Bakıda, Qusarda hərbi təlimlər keçir. Sonra Tbilisidəki hərbi-piyada məktəbinə göndərilir. Oradan doğmalarına göndərdiyi məktubda yazırdı ki, mən oxuduğum məktəbi əla qiymətlərlə qurtardım, rütbəm qvardiya leytenantıdır. Tiflis hərbi-piyada məktəbini bitirdikdən sonra 1942-ci ildə Mehdi cəbhəyə göndərilir.

İkinci Dünya müharibəsi illərində Bakı şəhəri faşist Adolf Hitlerin göz dikdiyi neft Bakısı kimi tanınıb. Qəhrəman Mehdi Vətənin hüdudlarından kənarda çex, slovak, polyak, yuqoslav, fransız, italyan partizan yoldaşlarına doğma Azərbaycandan, canı qədər sevdiyi Bakıdan və mavi Xəzərdən danışar, müharibə qurtardıqdan sonra birlikdə Bakıya getməyi arzulayar, Adriatik dənizinin Xəzər dənizinə çox bənzədiyini deyərdi.

Bu dövrdə şiddətli döyüşlər gedir. Minaatanlar tağımının komandiri vəzifəsində o, Stalinqrad döyüşündə iştirak edir. Stalinqraddan kiçik bacısına yazdığı son məktubda deyilir: "Cəbhədən yazıram. Burada şiddətli döyüşlər gedir. Faşistlərin qəddarlığını təsvir etmək çətindir. Onlar heç bir alçaq üsuldan çəkinmirlər. Sabah hücuma keçirik. Mən sizə söz verirəm ki, son damla qanıma qədər vuruşacağam, sizi əmin edirəm ki, mən qəhrəmancasına döyüşəcəyəm, sizin başınızı ucaldacağam, ölsəm də qəhrəmancasına öləcəyəm! Mənim barəmdə eşidərsiniz, hələlik, sağ olun. Bu mənim son məktubumdur!".

Mixaylo öz döyüşçüləri ilə əhəmiyyətli topoqrafik xəritələri ələ keçirir. Daha sonra o, alman zabiti formasında alman kazarmalarına daxil olur, yanğınsöndürənlərə mina döşəyib Triest şəhəri yaxınlığında yerləşən kinoteatr binasını partladır. Mixaylo özünün yaratdığı xüsusi kəşfiyyat-diversiya qrupunun başçısı idi. Mehdi alman, fransız, italyan dillərində sərbəst danışırdı. Yüksək istedada və intellektə malik olan Mehdi sloven dilini və bu ölkənin folklorunu öyrənib. Hətta müharibə vaxtı həm rəssamlıqla, həm də dilçiliklə məşğul olub. Mehdi Hüseynzadə kəşfiyyat zamanı rəssamlıq bacarığından və dil biliklərindən istifadə edərək özünü italiyalı hərbçi, rəssam, sloveniyalı kəndli kimi təqdim edib.

Cavad Həkimli xatirələrində yazır: "Mehdi elə qorxu yaratmışdı ki, almanlar şəhərə tək çıxmaqdan qorxurdular və onlara elə gəlirdi ki, Mixaylo nəhəng bir dəstənin adıdır və ona pəhləvan rəhbərlik edir. Almanlar başına böyük məbləğdə mükafat təyin etmələrinə baxmayaraq, Mehdi Hüseynzadə ələ keçməz olaraq qalırdı".

1942-ci ilin yayında qvardiya leytenantı Mehdi Hüseynzadə Stalinqrad cəbhəsinə göndərilir. O, Stalinqrad yaxınlığındakı Kalaç rayonunda vuruşur. Gənc zabit məktublarının birində ən ağır döyüşlərin getdiyi cəbhədə vuruşduğunu qeyd edirdi: "Bu məktubu düşmən güllələri altında yazıram, burada şiddətli vuruşmalar gedir, faşistlərin törətdiyi cinayətlərin həddi yoxdur. Biz hücuma hazırlaşırıq. Söz verirəm ki, son nəfəsədək vuruşacam, ölsəm də qəhrəman kimi öləcəm".

Həmin döyüşlərdə ağır yaralanan Mehdi əsir alınır. O, ilk günlərdən həbs düşərgəsindən qaçmaq və mübarizəni davam etdirmək ümidi ilə yaşayır. İki dəfə Ukrayna və Polşa ərazisində həbs düşərgəsindən qaçsa da, partizanlarla görüşə bilmir, faşistlərin əlinə keçir. Almanlar Ukraynanın işğal etdikləri ərazilərindən birində fəhlə batalyonu yaradırlar. Burada gələcək komandiri, partizan dostu Cavad Həkimli ilə tanış olur və hər ikisi alman dilini bildiyindən yük qatarı ilə Berlinə, Dolerits rayonunun dördüncü tərcüməçilər birləşməsinə göndərilir. Burada üç ay təhsil aldıqdan sonra onlar 162-ci Türküstan alman diviziyasına qəbul edilirlər. İkinci Dünya müharibəsi dövründə hərbi əsirlərdən ibarət milli birləşmələr - legionlar yaradılırdı. Onlara təxribatlar törətmək və silahlı mübarizə aparmaq tapşırılmışdı. Bunlardan biri də 162-ci Türküstan diviziyasının 314-cü alayı Azərbaycan legionu idi. Mehdi fransız dilini təmiz bildiyindən burada ondan daha çox istifadə edirdilər. Mehdi Hüseynzadə, Cavad Həkimli və digər hərbi əsirlərlə birlikdə necə olursa-olsun partizanlara qoşulmaq, əsirləri düşərgələrdən çıxarmaq üçün yollar axtarırdılar. Onlar Sovet əsirlərindən ibarət gizli təşkilat - rus bölüyü yaradır, düşərgədəki 23 min əsir arasında möhkəm təbliğat aparırlar. Təşkilatın rəhbəri Mehdi "Qürbətzadə Mixaylo" imzası ilə Azərbaycan dilində "Hüququnu itirmiş dostuma" sərlövhəli vərəqələri çap edərək qrup rəhbərləri və üzvləri vasitəsilə əsirlər arasında yayırdı. Sonu "Alman faşistlərinə ölüm!" cümləsi ilə bitən bu vərəqələr düşmənin yaxın vaxtlarda darmadağın olunacağı, əsirlərin intiqamının alınacağını bildirirdi.

1943-cü ilin noyabrında Mehdi istehkam qurmaq üçün yoldaşları ilə birlikdə Şimali İtaliyanın Triyest şəhəri yaxınlığındakı Villi Opçina qəsəbəsinə gətirilir. Mehdi burada tanış olduğu Aleksandr adlı sloveniyalının bacısı Savva adlı kəşfiyyatçı qızın köməyi ilə (Savva "Uzaq sahillərdə filmindəki Anjelikanın prototipidir) partizanlarla əlaqə yaratmağa nail olur. Cəld, çevik, qorxmaz xarakterə malik olan Mehdi Cavad Həkimli ilə birlikdə legiondan qaçaraq İtalyan-Yuqoslav 9-cu partizan korpusuna qoşulur. 9-cu korpusun tərkibində legionlardan qaçmış keçmiş Sovet əsirlərindən formalaşmış yeni bölük təşkil olunur. "Ruska-Çeta" adlanan rotanın komandiri Cavad Həkimli, kəşfiyyatçısı və siyasi hissə üzrə komandir köməkçisi Mehdi Hüseynzadə təyin olunur. Mixaylo ağlı, təmkini və əsl kəşfiyyatçı məharəti ilə bütün gərgin vəziyyətlərdən qalib çıxırdı. Hər bir tapşırığı ədalət, azadlıq, haqq işinin qələbəsi naminə yerinə yetirirdi. Həmişə deyirdi ki, kəşfiyyatçı da minaçı kimi bir dəfə səhv edir. Ona görə də əməliyyata hazırlaşarkən hər şeyi yüz ölçüb bir biçmək lazımdır.

O, çox zaman alman zabiti forması geyinirdi. Bəzən onu rəssam, yoxsul kəndli geyimində, mətbəə fəhləsi paltarında görürdülər. Mixaylonun tutulması və ölümü üçün alman komandanlığı 300 min marka məbləğində mükafat vəd etmişdi. Mixaylonun partlatdığı qatarlar, tankerlər, elektrik stansiyaları, kazarmalar faşistlərə çox baha başa gəlirdi.

1944-cü ildə Mixaylo komandanlıqdan aldığı növbəti tapşırığı uğurla həyata keçirir, lakin geri qayıdarkən düşmənlə üz-üzə gəlir. Noyabrın 2-də qeyri-bərabər döyüşdə 26 yaşlı Mixaylo qəhrəmancasına həlak olur. Cəsur kəşfiyyatçının partizan dostları onu müsəlman adət-ənənəsinə uyğun olaraq keçmiş Yuqoslaviya ərazisində yerləşən Çepovani kəndində dəfn edirlər. Onun məzarı üzərində bu sözlər yazılıb: "Azərbaycan xalqının qəhrəman oğlu, əziz dostumuz Mehdi, rahat yat. Sənin azadlıq uğrunda göstərdiyin ölməz qəhrəmanlıq dostlarının qəlbində daim yaşayacaqdır".

1957-ci il aprelin 11-də İkinci Dünya müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi qəhrəmanlığa görə Mehdi Hüseynzadəyə ölümündən sonra "Sovet İttifaqı Qəhrəmanı" adı verilir.

Haqqında şeirlər, poemalar, roman və povestlər yazılıb, bədii filmlər çəkilib. Azərbaycan yazıçıları İmran Qasımov və Həsən Seyidbəyli "Uzaq sahillərdə" povestində Mehdi Hüseynzadənin bədii surətini yaratmışlar. Hər iki müəllifin ssenarisi əsasında çəkilmiş "Uzaq sahillərdə", həmçinin, "9-cu korpus", "Təxəllüsü Mixaylo" filmləri Mehdi Hüseynzadənin qəhrəmanlıq dolu həyatından bəhs edir. Xalq şairi Süleyman Rüstəm "El oğluma" şeirini Mehdi Hüseynzadənin xatirəsinə həsr edib.

2011-ci ildə Sloveniyanın Novo Qoritsa şəhərində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin memorialının açılışında çıxışında Azərbaycan Prezidenti İlham Əliyev bu ölkənin dövlət başçısı Danilo Türkə, Sloveniya dövlətinə, Sloveniya xalqına Mehdi Hüseynzadənin xatirəsinə göstərdikləri böyük hörmətə görə Azərbaycan xalqı adından dərin təşəkkürünü bildirib. Qeyd edib ki, Mehdi Hüseynzadə burada sloveniyalı dostları ilə bərabər partizan dəstəsində faşistlərə qarşı döyüşərək qəhrəmancasına həlak olmuşdur. Bu mübarizə və xalqlarımızın birgə səyləri nəticəsində faşizm kimi bəla üzərində hamımız birlikdə qələbə qazanmışıq. Prezident İlham Əliyev, həmçinin vurğulayıb ki, İkinci Dünya müharibəsində 600 min Azərbaycan vətəndaşı döyüşüb, onların 300 mini həlak olub, müharibədən qayıtmayıb. Müharibə zamanı sovet ordusunun yanacağının 90 faizini Azərbaycan neftçiləri təmin ediblər. Qəhrəmanlarımıza, onların xatirəsinə olan hörmət və xoş münasibət Azərbaycan-Sloveniya əlaqələrini daha da gücləndirir.

Cəsur kəşfiyyatçı Mehdi Hüseynzadənin rəşadət dolu şərəfli həyat yolu bu gün Vətənimizin sərhədlərini layiqincə qoruyan Azərbaycan əsgəri üçün parlaq qəhrəmanlıq nümunəsidir.

Aygün İBRAHİMOVA,
"Respublika".